**“Təsdiq edilmişdir”**

**Azərbaycan Respublikasının**
**Milli Depozit Mərkəzinin**
**Müşahidə Şurasının**

**23 may 2018-ci il tarixli qərarı**

**( 05 №-li protokol)**

**Sədr ____________ C.Nəzərov**

M/Y

## Depozitar sistemində maliyyə girovunun qeydiyyata alınması üzrə Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin daxili Qaydaları

### 1. Ümumi müddəalar

**1.1.** Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsi və “Qiymətli kağızların girovunun qeydiyyatı, ona xitam verilməsi və girov predmetinə tutmanın yönəldilməsi Qaydası”na uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (bundan sonra - MDM) tərəfindən depozitar sistemində maliyyə girovunun qeydiyyatı, ona xitam verilməsi və girov predmetinə tutmanın yönəldilməsi qaydasını müəyyən edir.

### 2. Anlayışlar

**2.1.** **Depozitar sistemi –** qiymətli kağızların sənədsizləşdirilməsi, saxlanılması, uçotu, onlarla təsbit edilmiş hüquqların təsdiqi, öhdəliklərlə yüklənməsi, qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması, Azərbaycan Respublikasının “İnvestisiya fondları haqqında” Qanunu ilə müəyyən edilmiş qaydada pul hesablarının açılması, həmin hesablar üzrə əməliyyatların

aparılması və pul köçürmələrinin həyata keçirilməsi ilə əlaqədar MDM və onun üzvləri arasında olan münasibətlər sistemidir.

2.2. **Maliyyə girovu -** girov müqaviləsi tənzimlənən bazarlarda maliyyə öhdəliklərinin yerinə yetirilməsi məqsədilə bağlanıldıqda və həmin müqavilədə girov predmeti pul və ya tənzimlənən bazarda ticarət olunan qiymətli kağızlar və ya törəmə maliyyə alətləri olduqda və girov saxlayan və ya girov qoyan Azərbaycan Respublikasının Mərkəzi Bankı, mərkəzi depozitar, bank, sığorta şirkəti və ya investisiya şirkəti olduqda və girovla təmin edilmiş borc yalnız tənzimlənən bazarda alğı-satqı əməliyyatlarının keçirilməsi üçün istifadə olunduqda bu cür girov maliyyə girovu hesab olunur.

2.3. **Tənzimlənən bazar** – fond birjasının daxili qaydalarına uyğun olaraq ticarətə buraxılmış qiymətli kağızlar və törəmə maliyyə alətləri ilə üçüncü şəxslərin alqı-satqı maraqlarını özündə əks etdirən fond birjası tərəfindən təşkil və idarə olunan sistem.

2.4. **Girov predmeti** – tənzimlənən bazarda ticarət olunan və depozitar sistemində saxlanılan qiymətli kağızlar və törəmə maliyyə alətləri.

2.5. **Girov qoyan** – maliyyə girovu müqaviləsinə əsasən girov predmetini girov saxlayanın xeyrinə maliyyə girovu öhdəlikləri ilə yükləyən istənilən hüquqi və ya fiziki şəxsdir, bir şərtlə ki, müqavilənin tərəfləri və ya tərəflərindən biri Azərbaycan Respublikasının Mərkəzi Bankı, MDM, bank, sığorta və ya investisiya şirkətidir.

2.6. **Girov saxlayan** – maliyyə girovu müqaviləsinə əsasən girov predmetini öz xeyrinə maliyyə girovu öhdəlikləri ilə yükləyən istənilən hüquqi və fiziki şəxsdir, bir şərtlə ki, müqvilənin tərəfləri və ya tərəflərindən biri Azərbaycan Respublikasının Mərkəzi Bankı, MDM, bank, sığorta və ya investisiya şirkətidir;

2.7. **Törəmə maliyyə alətləri** – tənzimlənən bazarda bağlanılan fyuçers və opsion müqavilələridir.

2.8. **Fyuçers müqaviləsi** – baza aktivinin müəyyən olunmuş növdə və sayda əvvəlcədən razılaşdırılmış tarixə və qiymətə satıcı tərəfindən satılması, alıcı tərəfindən isə alınması öhdəliyini müəyyən edən və tənzimlənən bazarda bağlanılan müqavilədir.

**2.9.** **Opsion müqaviləsi** – sahibinə birtərəfli qaydada baza aktivini almaq, satmaq və ya svop etmək hüququnu verən və tənzimlənən bazarda bağlanılan müqavilədir.

**2.10.** **Depo hesabı** – MDM-in üzvünün müraciəti əsasında müştəri üçün MDM-də açılmış və özündə müştərinin qiymətli kağızlarına olan hüquqlara dair qeydləri əks etdirən hesab.

## 3. Maliyyə girovu üzrə girov hüquqlarının depozitar sistemində qeydiyyata alınması halları

**3.1.** Maliyyə girovunun predmeti tənzimlənən bazarda ticarət olunan qiymətli kağızlar və ya törəmə maliyyə alətləri olduqda həmin maliyyə girovu müqaviləsi depozitar sistemində bağlanır və dərhal qeydiyyata alınır.

**3.2.** Maliyyə girovu üzrə hüquqlar yalnız tənzimlənən bazarda alğı-satqı əməliyyatlarının keçirilməsi üçün aşağıdakı əməliyyatlara şamil olunur:

**3.2.1.** Tənzimlənən bazarda törəmə maliyyə alətləri ilə ticarətə;

**3.2.2.** Tənzimlənən bazarda qiymətli kağızlarla repo əməliyyatlarına;

**3.2.3.** Tənzimlənən bazarda ticarət olunan qiymətli kağızların borca verilməsinə;

**3.2.4.** Tənzimlənən bazarda qiymətli kağızlarla marja ticarətinə.

**3.3.** Depozitar sistemində maliyyə girovu üzrə hüquqlar aşağıdakı hallarda qeydiyyata alınır:

**3.3.1.** Tənzimlənən bazarda törəmə maliyyə alətləri ilə ticarətdən irəli gələn öhdəliklərin icra olunması ilə bağlı ticarətsonrası sistemdə klirinqin və hesablaşmanın aparılması və o cümlədən klirinq fonduna ödənişlər üzrə girov qoyana məxsus qiymətli kağızların girov saxlayanın xeyrinə maliyyə girovu öhdəlikləri ilə yüklü edilməsi ilə şərtləndirildikdə;

**3.3.2.** Tənzimlənən bazarda repo predmeti olan qiymətli kağızlarla repo əməliyyatlarının aparılması zamanı girov qoyana məxsus qiymətli kağızların girov saxlayanın xeyrinə maliyyə girovu öhdəlikləri ilə yüklü edilməsi ilə şərtləndirildikdə;

**3.3.3.** Tənzimlənən bazarda ticarət olunan qiymətli kağızlar girov qoyan tərəfindən girov saxlayandan borca alındıqda və borc müqaviləsindən irəli gələn öhdəliklərin girov qoyana məxsus qiymətli kağız və ya törəmə maliyyə alətləri ilə

girov saxlayanın xeyrinə maliyyə girovu öhdəlikləri ilə yüklü edilməsi hesabına təmin edildikdə;

**3.3.4.** Tənzimlənən bazarda marja ticarətinin baza aktivi kimi qəbul edilən qiymətli kağızlarla marja ticarətinin aparılması zamanı marja ticarətindən irəli gələn öhdəliklərin girov qoyana məxsus qiymətli kağızlarla girov saxlayanın xeyrinə maliyyə girovu öhdəlikləri ilə yüklü edilməsi hesabına təmin edildikdə.

## 4. Depozitar sistemində maliyyə girovunun qeydiyyatı

**4.1.** Maliyyə girovu üzrə hüquqların depozitar sistemində qeydiyyatı üçün girov qoyan və girov saxlayan arasında bu Qaydaların 1 saylı Əlavəsinə uyğun olaraq tərtib edilmiş “Maliyyə girovunun qeydiyyata alınması üzrə tapşırıq” əsasında maliyyə girovu müqaviləsi bağlanılır.

**4.2.** Maliyyə girovu müqaviləsi yalnız tərəflərə investisiya xidmətini göstərən və MDM-in üzvü olan müvafiq investisiya şirkəti tərəfindən elektron formada və ya kağız daşıyıcıda MDM-ə təqdim edilir.

**4.3.** Maliyyə girovu müqaviləsi investisiya şirkəti tərəfindən elektron formada təqdim edildikdə, Asan imza ilə təsdiqlənməlidir.

**4.4.** Maliyyə girovu müqaviləsində ən azı aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

**4.4.1.** Müqavilənin adı;

**4.4.2.** Girov qoyan və girov saxlayanın adı və qeydiyyatda olduğu ünvanları;

**4.4.3.** Girova qoyulan qiymətli kağızlar və törəmə maliyyə alətləri barədə məlumatlar;

**4.4.4.** Girovla təmin edilən öhdəliyin mahiyyəti və ölçüsü;

**4.4.5.** Girovla təmin edilən öhdəliyin icra müddəti (il, ay, gün göstərilməklə);

**4.4.6.** Qiymətli kağızlar üzrə yüklənən hüquqların növü və qüvvədə olma müddəti (olduqda);

**4.4.7.** Öhdəliklərin yerinə yetirilmədiyi təqdirdə girov qoyana məxsus qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin girov saxlayanın mülkiyyətinə keçməsi barədə razılaşma.

**4.5.** Maliyyə girovu müqaviləsi aşağıdakı tələblərə cavab verməlidir:

**4.5.1.** Maliyyə girovu müqaviləsi girov qoyan və girov saxlayanın səlahiyyətli şəxslərinin imzası və hüquqi şəxs olan tərəfin möhürü ilə təsdiq olunmalıdır;

**4.5.2.** Maliyyə girovu ilə təmin edilmiş öhdəliklər qiymətli kağızlar və ya törəmə maliyyə alətləri formasında olmalıdır;

**4.5.3.** Maliyyə girovu müqaviləsinin müddəti maliyyə girovunun predmeti olan qiymətli kağızlar və ya törəmə maliyyə alətlərinin tədavül müddətinin bitməsindən ən azı 1 (bir) gün əvvəl tamamlanmalıdır;

**4.5.4.** Maliyyə girovu müqaviləsinin tərəflərinin depozitar sistemində depo hesabı olmalı və girov qoyanın depo hesabında girov predmeti olan qiymətli kağızlar və ya törəmə maliyyə alətləri mövcud olmalıdır.

**4.6.** MDM maliyyə girovu üzrə girov hüququnu yalnız investisiya şirkəti tərəfindən təqdim edilən maliyyə girovu müqaviləsi əsasında qeydiyyata alır və girov predmetinin bu Qaydaların 5-ci bəndinə uyğun olaraq maliyyə girovu öhdəlikləri ilə yüklənməsini təmin edir.

**4.7.** MDM maliyyə girovu üzrə hüquqları qeydiyyata aldıqdan və girov predmetini öhdəliklərlə yüklü etdikdən sonra bu Qaydaların 2 saylı Əlavəsinə uyğun olaraq tərtib olunmuş "Maliyyə girovunun rəsmi reyestrindən Çıxarış"ı hazırlayaraq müvafiq investisiya şirkətinə təqdim edir.

**4.8.** Müvafiq investisiya şirkəti tərəfindən maliyyə girovu hüququnun qeydiyyatı ilə əlaqədar girov predmetini öhdəliklərlə yüklü edilməsi barədə girov qoyan və girov saxlayanın məlumatlandırılması təmin edilir.

**4.9.** Maliyyə girovu hüququnun qeydiyyata alınması ilə əlaqədar məhdudiyyətlər aşağıdakılardır:

**4.9.1.** Maliyyə girovu predmetinin digər bir maliyyə girovu müqaviləsinə əsasən təkrar maliyyə girovu öhdəlikləri ilə yüklənməsinə (sonrakı maliyyə girovuna) yol verilmir;

**4.9.2.** Adi girov öhdəlikləri ilə yüklənmiş qiymətli kağızların maliyyə girovu öhdəlikləri ilə yüklənməsinə yol verilmir;

**4.9.3.** Maliyyə girovu müqaviləsi bu Qaydaların tələblərinə cavab vermədikdə, girov predmetinin maliyyə girovu öhdəlikləri ilə yüklənməsinə yol verilmir.

## 5. Girov predmetinin maliyyə girovu öhdəlikləri ilə yüklənməsi

**5.1.** Maliyyə girovu üzrə girov predmeti qiymətli kağızlar və ya törəmə maliyyə alətləri olduqda, onların MDM tərəfindən maliyyə girovu öhdəlikləri ilə yüklənməsi girov qoyanın depo hesabında saxlanılan və girov predmetini təşkil edən qiymətli kağızlar və ya törəmə maliyyə alətləri üzrə əməliyyatların məhdudlaşdırılması yolu ilə aparılır.

## 6. Depozitar sistemində maliyyə girovu hüququna dəyişikliklərin qeydiyyatı

**6.1.** Maliyyə girovu hüquqlarına dəyişikliklər 4.5-ci bəndinin tələbləri nəzərə alınmaqla aşağıdakı hallarda edilir:

**6.1.1.** Maliyyə girovunun predmetinin həcmi dəyişildikdə;

**6.1.2.** Maliyyə girovunun predmeti əvəzləşdirildikdə;

**6.1.3.** Maliyyə girovu ilə təmin olunan öhdəliyin həcmi dəyişildikdə;

**6.1.4.** Girov saxlayan dəyişdikdə;

**6.1.5.** Öhdəliyin icra müddəti dəyişdikdə.

**6.2.** MDM maliyyə girovu üzrə girov hüququna dəyişikliyi yalnız bu Qaydaların 4.2-ci bəndində qeyd edilən investisiya şirkəti tərəfindən təqdim olunan və bu Qaydaların 3 saylı Əlavəsinə uyğun olaraq tərtib edilmiş "Maliyyə girovu hüququna dəyişikliklərin edilməsi üzrə Tapşırıq" əsasında qeydiyyata alır və bu Qaydaların 5-ci bəndində uyğun olaraq girov predmetinin maliyyə girovu öhdəlikləri ilə yüklənməsini təmin edir.

**6.3.** MDM maliyyə girovu üzrə hüquqlara dəyişiklikləri qeydiyyata aldıqdan və müvafiq qaydada girov predmetini maliyyə girovu öhdəliklərilə yüklü etdikdən sonra bu Qaydaların 2 saylı Əlavəsinə uyğun olaraq tərtib olunmuş "Maliyyə girovunun rəsmi reyestrindən Çıxarış"ı hazırlayaraq müvafiq investisiya şirkətinə təqdim edir.

**6.4.** Müvafiq investisiya şirkəti tərəfindən maliyyə girovu hüququna dəyişikliklərin qeydiyyatı ilə əlaqədar girov qoyan və girov saxlayanın məlumatlandırılması təmin edilir.

## 7. Maliyyə girovu predmetinə tutmanın yönəldilməsi

**7.1.** Depozitar sistemdə bağlanmış maliyyə girovu müqavilələri üzrə öhdəliklərin icra müddəti başa çatdığı gün, öhdəliklərin icra olunması barədə MDM-ə məlumat verilmədikdə girova qoyulmuş qiymətli kağızlar və ya törəmə maliyyə alətləri girov saxlayanın mülkiyyətinə ötürülür.

**7.2.** Maliyyə girovu üzrə girov predmetinə tutmanın yönəldilməsi MDM tərəfindən həyata keçirilir.

**7.3.** Maliyyə girovunun predmeti qiymətli kağızlar və ya törəmə maliyyə alətləri olduqda girov predmetinə tutmanın yönəldilməsi aşağıdakı qaydada aparılır:

**7.3.1.** Müvafiq investisiya şirkəti tərəfindən bu Qaydaların 4 saylı Əlavəsinə uyğun tərtib edilmiş "Maliyyə girovu predmetinə tutmanın yönəldilməsi üzrə Tapşırıq" MDM-ə təqdim edilir;

**7.3.2.** MDM tərəfindən girov predmeti olan qiymətli kağızlar və ya törəmə maliyyə alətləri girov qoyanın depo hesabından girov saxlayanın depo hesabına ötürülür.

## 8. Maliyyə girovu hüququna xitam verilməsi

**8.1.** İnvestisiya şirkəti tərəfindən bu Qaydaların 5 saylı Əlavəsinə uyğun tərtib edilmiş "Maliyyə girovu hüquqlarına xitamın verilməsi üzrə Tapşırıq" MDM-ə təqdim olunduqda, maliyyə girovu hüququna xitam verilir. MDM "Maliyyə girovu hüquqlarına xitam verilməsi üzrə Tapşırıq"ı aldıqdan sonra aşağıdakı tədbirləri həyata keçirilməsini təmin edir:

**8.1.1.** Maliyyə girovu predmetini təşkil edən qiymətli kağız və ya törəmə maliyyə alətləri üzrə aparılan əməliyyatlar üzrə məhdudiyyətləri aradan qaldırır;

**8.1.2.** Maliyyə girovu hüququna xitam verilməsi ilə əlaqədar müvafiq investisiya şirkətini məlumatlandırır.

**8.2.** Müvafiq investisiya şirkəti tərəfindən maliyyə girovu hüququna xitam verilməsi ilə əlaqədar girov qoyan və girov saxlayanın məlumatlandırılması təmin edilir.

“Depozitar sistemində maliyyə girovunun qeydiyyata alınması üzrə Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin daxili Qaydaları”na **Əlavə №1**

**Maliyyə girovunun qeydiyyata alınması üzrə Tapşırıq**

| | |
|---|---|
| 1. **Girov qoyan haqqında məlumat**: | |
| Tam adı: | |
| Ünvanı: | |
| 2. **Girov saxlayan haqqında məlumat**: | |
| Tam adı: | |
| Ünvanı: | |
| 3. **Girovun məqsədi** (aşağıdakı xalanardan biri seçilməli): | |
| ☐ Girov qoyanın tərəf olduğu törəmə maliyyə alətlərindən irəli gələn qiymətli kağız öhdəliklərinin girov saxlayanın xeyrinə maliyyə girovu ilə yüklü edilməsi | |
| ☐ Girov qoyanın tərəf olduğu qiymətli kağızlarla repo əməliyyatlarından irəli gələn qiymətli kağız öhdəliklərinin girov saxlayanın xeyrinə maliyyə girovu ilə yüklü edilməsi | |
| ☐ Girov qoyan tərəfindən girov saxlayandan qiymətli kağızların borca alınması üzrə müqavilədən irəli gələn öhdəliklərin girov qoyana məxsus qiymətli kağız və ya törəmə maliyyə alətləri ilə girov saxlayanın xeyrinə maliyyə girovu ilə yüklü edilməsi | |
| ☐ Girov qoyan tərəfindən qiymətli kağızlarla marja ticarətindən irəli gələn öhdəliklərin girov qoyana məxsus qiymətli kağızlarla girov saxlayanın xeyrinə maliyyə girovu öhdəlikləri ilə yüklü edilməsi | |
| 4. **Girov predmeti haqqında məlumat** (aşağıdakı xanalardan biri seçilməli və xanaya aid məlumatlar doldurulmalıdır: | |
| ☐ Girov predmeti qiymətli kağız olduqda: | |
| ISIN: | |
| Miqdar: | |
| Ümumi məbləğ: | |
| ☐ Girov predmeti törəmə maliyyə alətləri olduqda: | |
| Müqavilənin növü və sayı: | |
| Müqavilənin nömrəsi və tarixi: | |
| Ümumi məbləğ: | |
| 5. **Girov predmetinə tutulma:** | Girov qoyan tərəfindən öhdəliklər öhdəliyin icra müddəti ərzində yerinə yetirilmədiyi təqdirdə girov predmeti MDM tərəfindən girov saxlayanın mülkiyyətinə ötürüləcəkdir. |
| 6. **Öhdəliyin icra müddəti** (il, ay, gün göstərilməklə): | |

Bu Tapşırıq girov qoyana məxsus girov predmetinin maliyyə girovu öhdəlikləri ilə yüklənməsi üçün əsasdır.

Girov qoyanın səlahiyyətli nümayəndəsinin imzası ......................................................M.Y.

Tarix: ....................................

Girov saxlayanın səlahiyyətli nümayəndəsinin imzası .........................................................M.Y.

Tarix: ....................................

“Depozitar sistemində maliyyə girovunun qeydiyyata alınması üzrə Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin daxili Qaydaları”na **Əlavə №2**

**Maliyyə girovunun rəsmi reyestrindən Çıxarış**

| | |
|---|---|
| 1. **Girov qoyan haqqında məlumat**: | |
| Tam adı: | |
| Ünvanı: | |
| 2. **Girov saxlayan haqqında məlumat**: | |
| Tam adı: | |
| Ünvanı: | |
| 3. **Girovun məqsədi** (aşağıdakı xalanardan biri seçilməli): | |
| ☐ Girov qoyanın tərəf olduğu törəmə maliyyə alətlərindən irəli gələn qiymətli kağız öhdəliklərinin girov saxlayanın xeyrinə maliyyə girovu ilə yüklü edilməsi | |
| ☐ Girov qoyanın tərəf olduğu qiymətli kağızlarla repo əməliyyatlarından irəli gələn qiymətli kağız öhdəliklərinin girov saxlayanın xeyrinə maliyyə girovu ilə yüklü edilməsi | |
| ☐ Girov qoyan tərəfindən girov saxlayandan qiymətli kağızların borca alınması üzrə müqavilədən irəli gələn öhdəliklərin girov qoyana məxsus qiymətli kağız və ya törəmə maliyyə alətləri ilə girov saxlayanın xeyrinə maliyyə girovu ilə yüklü edilməsi | |
| ☐ Girov qoyan tərəfindən qiymətli kağızlarla marja ticarətindən irəli gələn öhdəliklərin girov qoyana məxsus qiymətli kağızlarla girov saxlayanın xeyrinə maliyyə girovu öhdəlikləri ilə yüklü edilməsi | |
| 4. **Girov predmeti haqqında məlumat** (aşağıdakı xanalardan biri seçilməli və xanaya aid məlumatlar doldurulmalıdır: | |
| ☐ Girov predmeti qiymətli kağız olduqda: | |
| ISIN: | |
| Miqdar: | |
| Ümumi məbləğ: | |
| ☐ Girov predmeti törəmə maliyyə alətləri olduqda: | |
| Müqavilənin növü və sayı: | |
| Müqavilənin nömrəsi və tarixi: | |
| Ümumi məbləğ: | |
| 5. **Girov predmetinə tutulma:** | Girov qoyan tərəfindən öhdəliklər öhdəliyin icra müddəti ərzində yerinə yetirilmədiyi təqdirdə girov predmeti MDM tərəfindən girov saxlayanın mülkiyyətinə ötürüləcəkdir. |
| 6. **Öhdəliyin icra müddəti** (il, ay, gün göstərilməklə): | |

**QEYDİYYATA ALINMIŞDIR**

**Qeydiyyat nömrəsi** ..............................................................................................................

**Qeydiyyat tarixi** ..............................................................................................................

Səlahiyyətli şəxs:

S.A.A. ............................................................................................... İmza: ....................

İcraçı:

S.A.A. ............................................................................................... İmza: ..................... M.Y.

"Depozitar sistemində maliyyə girovunun qeydiyyata alınması üzrə Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin daxili Qaydaları"na **Əlavə №3**

**Maliyyə girovu hüququna dəyişikliklərin edilməsi üzrə Tapşırıq**

| | |
|---|---|
| 1. **Girov qoyan haqqında məlumat**: | |
| Tam adı: | |
| Ünvanı: | |
| 2. **Girov saxlayan haqqında məlumat**: | |
| Tam adı: | |
| Ünvanı: | |
| 3. **Girov müqaviləsinə əlavə haqqında məlumat :** | |
| Nömrəsi: | |
| Tarixi: | |
| 4. **Girov predmeti haqqında məlumat** (aşağıdakı xanalardan biri seçilməli və xanaya aid məlumatlar doldurulmalıdır: | |
| ☐ Girov predmeti qiymətli kağız olduqda: | |
| ISIN: | |
| Miqdar: | |
| Ümumi məbləğ: | |
| ☐ Girov predmeti törəmə maliyyə alətləri olduqda: | |
| Müqavilənin növü və sayı: | |
| Müqavilənin nömrəsi və tarixi: | |
| Ümumi məbləğ: | |
| 5. **Girov predmetinə tutulma:** | Girov qoyan tərəfindən öhdəliklər öhdəliyin icra müddəti ərzində yerinə yetirilmədiyi təqdirdə girov predmeti MDM tərəfindən girov saxlayanın mülkiyyətinə ötürüləcəkdir. |
| 6. **Öhdəliyin icra müddəti** (il, ay, gün göstərilməklə): | |

Bu Tapşırıq MDM tərəfindən............. tarixli, ............. nömrə ilə qeydiyyata alınmış maliyyə girovu hüququna dəyişikliyin edilməsi üçün əsasdır.

Girov qoyanın səlahiyyətli nümayəndəsinin imzası .......................................................M.Y.

Tarix: .....................................

Girov saxlayanın səlahiyyətli nümayəndəsinin imzası ..........................................................M.Y.

Tarix: .....................................

“Depozitar sistemində maliyyə girovunun qeydiyyata alınması üzrə Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin daxili Qaydaları”na **Əlavə №4**

**Maliyyə girovu predmetinə tutmanın yönəldilməsi üzrə Tapşırıq**

| | |
|---|---|
| 1. **Girov qoyan haqqında məlumat**: | |
| Tam adı: | |
| Ünvanı: | |
| 2. **Girov saxlayan haqqında məlumat**: | |
| Tam adı: | |
| Ünvanı: | |
| 3. **Girovun qeydiyyatı haqqında məlumat:** | |
| Nömrəsi: | |
| Tarixi: | |
| 4. **Girov müqaviləsinə əlavə haqqında məlumat:** | |
| Nömrəsi: | |
| Tarixi: | |
| 5. **Girov predmeti haqqında məlumat** (aşağıdakı xanalardan biri seçilməli və xanaya aid məlumatlar doldurulmalıdır: | |
| ☐ Girov predmeti qiymətli kağız olduqda: | |
| ISIN: | |
| Miqdar: | |
| Ümumi məbləğ: | |
| ☐ Girov predmeti törəmə maliyyə alətləri olduqda: | |
| Müqavilənin növü və sayı: | |
| Müqavilənin nömrəsi və tarixi: | |
| Ümumi məbləğ: | |
| 6. **Girov predmetinə tutulma:** | Girov qoyan tərəfindən öhdəliklər öhdəliyin icra müddəti ərzində yerinə yetirilmədiyi üçün girov predmetinin MDM tərəfindən girov saxlayanın mülkiyyətinə ötürülməsi |
| 7. **Öhdəliyin icra müddəti** (il, ay, gün göstərilməklə): | |

Bu Tapşırıq MDM maliyyə girovu predmetinin girov saxlayanın mülkiyyətinə keçməsi üçün əsasdır.

Girov saxlayanın səlahiyyətli nümayəndəsinin
imzası ..........................................................M.Y.

Tarix: .....................................

“Depozitar sistemində maliyyə girovunun qeydiyyata alınması üzrə Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin daxili Qaydaları”na **Əlavə №5**

**Maliyyə girovu hüquqlarına xitam verilməsi üzrə Tapşırıq**

| | |
|---|---|
| **1. Girov qoyan haqqında məlumat**: | |
| Tam adı: | |
| Ünvanı: | |
| **2. Girov saxlayan haqqında məlumat**: | |
| Tam adı: | |
| Ünvanı: | |
| **3. Girovun qeydiyyatı haqqında məlumat:** | |
| Nömrəsi: | |
| Tarixi: | |
| **4. Girov müqaviləsinə əlavə haqqında məlumat:** | |
| Nömrəsi: | |
| Tarixi: | |

Bu Tapşırıq maliyyə girovu hüququna xitam verilməsi üçün əsasdır.

Girov saxlayanın səlahiyyətli nümayəndəsinin
imzası .......................................................M.Y.

Tarix: .....................................